# Abdulla Şaiq yad edildi



Görkəmli ədib Abdulla Şaiq Talıbzadənin 132-ci ildönümü ədibin Fəxri xiyabandakı qəbirüstü abidəsi önündə qeyd olundu. A.Şaiqin mənzil muzeyi tərəfindən təşkil edilən mərasimə şaiqsevərlər toplaşmışdı.

Mərasimi giriş sözü ilə açan muzeyin direktoru, Abdulla Şaiqin nəvəsi Ülkər xanım Talıbzadə vurğuladı ki, Şaiqi yad edənlər arasında şagirdlərin daha çox olması təsadüfi deyil. Çünki ədib kiçik yaşlıların maraq dairəsinə uyğun yüzlərlə əsərlər - şeirlər, pyeslər, mənzum hekayələr, təmsillər yazmışdır. O, ömrünün altmış ilini uşaqların maariflənməsinə, təlim-tərbiyəsinə həsr etmişdir. Şaiq irsi üzərində tədqiqatçı Arzu Hacıyeva ədibin yaradıcılığı və Azərbaycan ədəbi-ictimai fikir tarixində rolu barədə məlumat verdi. O, A.Şaiq yaradıcılığının maraqlı məqamlarına toxundu, onun milli pedaqogika, ədəbiyyatşünaslıq, uşaq ədəbiyyatı, dərslik tərtibi, teatr sahəsində xidmətlərindən danışdı. 54 saylı məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Rəfiqə Hüseynovaya məktəblərinin şagird və müəllim heyətinin A.Şaiq irsinə xüsusi rəğbətindən danışdı. O, bildirdi ki, yalnız ruhu, mənəviyyatı uşaq qədər təmiz olan bir yazıçı uşaq dünyasını hiss edə və onlar üçün belə dəyərli əsərlər yarada bilərdi.

Sabunçu rayonundakı 67 saylı məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Gülşanə Xudiyeva A.Şaiq yaradıcılığının çoxtərəfli mahiyyətinə toxundu, qeyd etdi ki, ədibin fəaliyyəti zaman baxımından yerinə düşmüşdü. Belə ki, bir sıra ziyalılarla yanaşı, A.Şaiq də vətənin ona ehtiyacı olan bir məqamda meydana atılmış, Vətən və millət naminə böyük işlər görmüşdü.

Həmin məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi filologiya üzrə fəlsəfə doktoru Könül Nəhmətova bildirdi ki A.Şaiq kimi yazıçıların əsərləri dərsliklərə sıx-sıx daxil edilməlidir.

Mərasimdə Bakıdakı 54, 67 saylı məktəblərin şagirdlərinin ifasında ədibin yaradıcılığından nümunələr səslendirilmişdir.

**A.Hacızadə**